UOT 94(479.24)

ŞÖLƏ MƏMMƏDOVA

AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun
Azərbaycanın sovet dövrü tarixi şöbəsinin kiçik elmi işçisi
shela.mammadova@yahoo.com

1945-1953-CÜ İLLƏR AZƏRBAYCAN SSR-DƏ SOVET SİYASİ REJİMİNİN SƏRTLƏŞMƏSİ

DOI: https://doi.org/10.36719/2708-065X/111/178-186

Məqalədə Azərbaycan SSR-də 1945-1953-cü illərdə sovet siyasi rejiminin qədəm basdığı növbəti sərtləşmə mərhələsi nəzərdən keçirilmişdir. Aparılan araşdırma gedişində Sovet hökumətinin Azərbaycan xalqına qarşı həyata keçirdiyi sürgün və deportasiya siyasəti, milli mənəvi dəyərlərə qarşı yönəlmiş məhdudedici tədbirlər, yadelli kadrların Azərbaycanda rəhbər vəzifə tutması, gizli İldırım təşkilatının nümunəsində sovet siyasi rejiminə qarşı mübarizə cəhdləri barədə məlumat verilir. Bununla yanaşı sovet siyasi rejiminin sözügedən illərdə xalqımıza, dövlətçilik ənənələrimizə vurduğu zərər zəngin faktoloji bazaya istinadla səciyyələndirilmiş, Ermənistan SSR-də yaşayan soydaşlarımızın faktiki fiziki məhvinə hesablanmış deportasiyası tədbirləri xüsusi vurğulanmışdır. Məqalədə qarşıya qoyulan problem araşdırılarkən əldə edilən ən mühüm yenilik, fikrimizcə, 1945-1953-cü illərdə mövcud rejimin Azərbaycan xalqına qarşı sərgilədiyi sərt tədbirlərin əslində 1920-ci il 27 aprel işğalından sonra başlanan sovet repressiyalarının yekun mərhələsi olması müddəasının əsaslandırılmasıdır. Çünki, "İldırım" təşkilatının darmadağın edilməsi ilə Azərbaycanda istər istiqlal ideyalarının daşıyıcılarına, istərsə də antitotalitar düşüncə sahiblərinə olduqca ciddi zərbə endirilmişdi. Bu, sonrakı onilliklərdə milli oyanış təzahürlərinin daha çox mədəniyyət və filologiya məsələləri müstəvisində özünü göstərməsinə səbəb olmuş, totalitar rejimə qarşı siyasi müqavimətin önəmli dərəcədə zəifləməsinə gətirib çıxarmışdı. Təsadüfi deyildi ki, 1980-ci illərin ortalarınadək biz milli hərəkatın hansısa təşkilati formasına rast gəlmirik.

Açar sözlər: Azərbaycan SSR, deportasiya, İldırım təşkilatı, totalitar rejim.

Giriş. 1933-cü ildən Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi vəzifəsini tutan, Azərbaycanda 1937-1938-ci illərdə həyata keçirilmiş repressiyaların əsas icraçısı və müqəssiri sayılan Mircəfər Bağırov İkinci dünya müharibəsinin başa çatmasından sonra da respublikaya rəhbərliyə davam etmişdi. O, 1953-cü ilin aprelin 6-da vəzifəsindən kənarlaşdırılnadək bilavasitə respublikada o dönəmdə cərəyan edən prosesləri nəzarətində saxlamışdı. Ona görə də həm müsbət, həm də mənfi planda baş verənlərə görə məsuliyyət birbaşa Bağırovun üzərinə düşürdü. Müharibə sonrası illər bütövlükdə təzadlı dövr kimi səciyyələndirilə bilər. Bir tərəfdən Azərbaycan sovet dönəminin növbəti, sayca ikinci sənayeləşməsi dalğasını yaşayırdı: qısa dövr ərzində Mingəçevir, Sumqayıt, Daşkəsən, Əli-Bayramlı (Şirvan) kimi sənaye mərkəzləri inşa edilmiş, respublikanın nəinki energetik təminatında, ümumən iqtisadi müstəqilliyində mühüm rol oynacaq Mingəçevir su-elektrik stansiyası tikilmiş, dənizdə ilk neft platforması kimi tarixə düşən Neft Daşları salınmışdır. Bundan başqa, son illərin tədqiqatlarından da göründüyü kimi, Bağırov Cənubi Azərbaycan məsələsində də milli təəssübkeşlik göstərmiş, Azərbaycanın bütövlüyü uğrunda addımlar atmışdı. Amma digər tərəfdən elə həmin Bağırov bütünlükdə Sovet İttifaqında olduğu kimi, Azərbaycanda da son stalinist repressiyalar dönəmi kimi tarixə düşmüş 1940-cı illərin sonlarında xalqımızın ləyaqətli övladlarının repressiya olunmasında, milli mənəvi dəyərlərə qarşı açılan kampaniyada fəal və mühüm rol oynamışdı.

Tədqiq etdiyimiz 1945-1953-cü illərdə bütövlükdə SSRİ məkanında da ciddi dəyişiklər baş vermişdi. Belə ki, 1945-ci ilin sentyabrında Dövlət Müdafiə Komitəsi fəaliyyətini dayandırmış, 10 fevral 1946-cı il tarixində SSRİ Ali Sovetinə yeni seçkilər keçirilmişdi. 1945-ci ilin mart ayında SSRİ Ali Soveti Xalq Komissarları Şuirasının Nazirlər Şurasına (Sovetinə) çevrilməsi haqqında qanun da qəbul edilmişdi [14, s.170]. SSRİ Nazirlər Sovetinin sədri vəzifəsinə İosif Stalin təsdiq olunmuşdu. Əslində siyasi hakimiyyət yenə də Ümumittifaq Kommunist (bolşeviklər) Partiyasının Mər-

kəzi Komitəsinin Siyasi Bürosunun əlində idi. Qısa müddət sonra bu siyasi qurum da praktiki olaraq fəaliyyətsiz qaldı. Çünki İ.Stalin SSRİ-ni və ÜK(b)P-nin MK Siyasi Bürosunun, 1952-ci il oktyabrından (partiyanın XIX qurultayından sonra) isə MK Rəyasət Heyətini şəxsi seçimi ilə yaratmış olduğu "üçlük", "beşlik", "altılıq", "yeddilik", "doqquzluq" sistemi ilə təkbaşına idarə etməyə çalışırdı [10, s.131]. Partiya nizamnaməsi gözlənilmir, ali orqanlar vaxtlı vaxtında çağırılmır (XVIII qurultayla XIX qurultay arasından 13 il yarım keçmişdi), kollegiallıq prinsipinə əməl olunmurdu. Stalinin rəhbərliyi dövründə SSRİ-də onun şəxsiyyətinə pərəstiş, Stalinin əlaltılarının dövlətə, partiyaya qarşı zidd fəaliyyəti və siyasi avantürist Beriyanın cinayətkar fəaliyyəti o illərdə totalitar rejimin səciyyəvi cəhətlərindən idi.

O illərin Azərbaycan siyasi reallıqlarını araşdıran mərhum professor E. İsmayılovun belə bir fikri ilə razılaşmaq olar ki, müttəfiq respublikalar, o cümlədən Azərbaycanın siyasi sistemi Stalinin Ümumittifaq miqyasında formalaşdırdığı sistemin dəqiq surəti idi. Stalin kimi M.C.Bağırov da elə bir düzən yaratmışdı ki, hətta ən yüksək partiya vəzifəsində çalışanlar belə ondan asılılığını hiss edir, onun gizli və açıq təhdidləri şəraitində fəaliyyət göstərməli olurdular [12, s.89-90]. Buradan belə bir nəticə çıxarmaq olar ki, totalitar sistemdə heç kim özünü repressiyalardan sığortalanmış hesab edə bilməzdi. Müharibədən sonrakı illərdə də yüksək dövləti vəzifəlilərin tez-tez dəyişdirilməsi, bəzən cəzalandırılması sistemin qeyd olunan xüsusiyyətindən irəli gəlirdi.

1949-cu il 12 aprel tarixində şəhər və rayon milis orqanlarında siyasi idarələr təsis edildi, 9 avqust tarixində paytaxtlarda, o cümlədən Bakıda milisə xüsusi hüquqlar verildi, oktyabrın 13-də milis SSRİ Dövlət Təhlükəsizlik Nazirliyinin tabeçiliyinə keçirildi [10, s.137]. Düşüncələrə nəzarət etmə, gizli formada izləmə, çuğulluq (donos) geniş yayılmışdı. Heç bir əsas olmadan həyata keçirilən repressiyalar da ara vermirdi. Öncəki repressiya dalğaları ilə müqayisədə İkinci dünya müharibəsindən sonra repressiyaların əsas qurbanları əsir düşmüş sovet hərbi qulluqçuları olmuşdular. Vətənə qaytarılan keçmiş əsirlərə və "tələbələrin əhvali-ruhiyyəsinə nəzarət" gücləndirilmişdi. Əlamətdardır ki, Stalinin ölümü ərəfəsində və ondan sonrakı ilk dönəmlərdə partiya-dövlət mətbuatında və başqa ideoloji təbliğat vasitələrində dərc olunan materiallarda sanki 1937-ci ilin qanlı havası sezilirdi. Ümumiyyətlə, müharibədən sonra Stalinin şəxsiyyətinə pərəstişi özünün zirvəsinə çatmışdı. Öz fəaliyyətinə bir növ ara vermiş cəza mexanizmləri yenidən işə salınmaqda idi. Doğrudur, 1940-cı illərin ikinci yarısı – 1950-ci illərin əvvəllərində biz 1937-1938-ci illər miqyasında və səciyyəsində repressiyaların vüsət almasını görmürük. Amma ideoloji sferada, mədəniyyətdə, ədəbiyyatda, incəsənətdə, elmdə totalitar basqılar daha da güclənmiş, özgəfikirlilik ilə mübarizə daha da kəskinləşmişdi.

Azərbaycan SSR-də Sovet siyasi rejiminin sərtləşməsi. Sözsüz ki, baş verənlər Azərbaycana da təsirsiz ötüşmürdü. Şəxsiyyətə pərəstişin ağır nəticələri ictimai, humanitar, ələlxüsus, tarix elmində özünü daha çox göstərirdi. XX əsrin tarixinə aid tədqiqatlar "ÜİK(b)P tarixinin qısa kursu"nun təsiri altında qalmışdı. Bu zaman tarixi proseslərin obyektiv izahı çox vaxt arxa plana keçir, hakim ideoloji fikir çərçivəsində tarixi keçmişin kifayət qədər təhrif olunmuş mənzərəsi yaradılırdı. Azərbaycanın Yeni və Ən yeni tarixinin bir çox məsələsi müvafiq "emala" məruz qalaraq, bəlli ideoloji hədəflər naminə təfsir olunurdu. İlk növbədə Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalı hadisəsinə rəsmi münasibət konseptual dəyişikliyə uğradılmışdı. Belə ki, XX əsrin 30-cu illərinin sonunda rəsmi sovet tarixşünaslığı tərəfindən irəliyə atılmış "nisbətən az bəla" konsepsiyasından, 1940-50-ci illərdə mütərəqqi səciyyəyə malik "birləşdirilmə" konsepsiyasına keçid edildi. Yəni XX əsrin 40-cı illərinin ikinci yarısından başlayaraq əslində Azərbaycan xanlıqlarının çar Rusiyası tərəfindən işğal edilmədiyi, sadəcə imperiyaya birləşdirildiyi, bu birləşmənin mütərəqqi əhəmiyyət daşıdığı istiqamətində əsərlər yazılmağa başlandı [3, s.6, 154]. Bununla yanaşı, sovet idarəçiliyinin, təkpartiyalı siyasi sistemin, cəmiyyət həyatının bütün sahələrində partiya amirliyinin, ictimai mülkiyyətin, "sosialist" istehsal münasibətlərinin ziddiyyətləri ört-basdır olunurdu [5, s.134-135].

Hakim ideoloji qayələrlə uzlaşmayan gerçəkləri yazmaq cəhdlərinin qarşısı dərhal təqib, habelə müxtəlif cəzalarla alınırdı. O illərdə daxili işlər orqanlarında söz sahibi olan general-leytenant Ruben Markaryan, general-mayor Xoren Qriqoryan, general mayor Stepan Yemelyanov, general-leytenant Timofey Borşov, SSRİ XDİK-nın əsas üçlüyünə daxil olan Yuvelyan Sumbatov-Topuridze, general-mayor Ağasəlim Atakişiyev Azərbaycan xalqının ən qabaqcıl, nüfuzlu şəxsiyyətlərinə, ələlxüsus mil-

lətin mənəvi aparıcı təbəqəsi olan ziyalılara qarşı sanki səlib yürüşünə başlamışdılar. Azərbaycan neftçi alimlərindən Ələşrəf Əlizadə, Baxışbəy Sultanov, Əli Muradbəyli Cəmil, Yusif Səfərov, filosoflardan Heydər Hüseynov, Əli Əlizadə, yazıçılardan Əbülhəsən Ələkbərzadə, şairlərdən Səməd Vurğun, bəstəkarlardan Üzeyir Hacıbəyov və başqaları bu və digər dərəcədə təqiblərin əsas hədəfləri idilər.

Akademik Heydər Hüseynovun 1949-cu ildə çap olunmuş "Azərbaycanda XIX əsr ictimai və fəlsəfi fikir tarixindən" əsəri Stalin mükafatı almışdı. Elmi-ictimaiyyət və cəmiyyət tərəfindən ehtiramla qəbul olunmuş kitab M.C.Bağırov və ətrafı tərəfindən "Şamilin başçılığı ilə hərəkat, müridizm, guya Rusiya xalqına qarşı mübarizə kimi" qiymətləndirilmiş, məhz buna görə Stalin mükafatı hökumətin qərarı ilə ləğv edilmiş, müəllif ağır təqiblərə məruz qalmış, özünə qarşı haqsızlığa dözməyərək, intihar etmişdi [4, s. 81].

Ədəbi jurnallar, teatr repertuarları və kino sənəti barədə Mərkəzi Komitənin 1946-1948-ci illərdə qəbul etdiyi qərarlarda bədii formanın "yüksək ideyalara" tabe edilməsinin "geniş proqramı" verilmişdi. Ədəbiyyat və incəsənətdə fərdiliyə, milliliyə "formalizm" damğası vurulurdu. "Sosialist realizmi" ideoloji qəlibindən kənara çıxmaq, cəmiyyətin həyatında mövcud olan nöqsanlardan, ziddiyyətlərdən danışmaq olmazdı [1, s.144].

Azərbaycan xalqının dastanları feodal münasibətlərini təbliğ etməkdə, qeyri-xəlqilikdə ittiham olunurdu. Türk dünyasının, və ilk növbədə də Azərbaycan türklərinin möhtəşəm orta əsr abidəsi "Kitabi-Dədə Qorqud" "irticaçı feodal-xan eposu" kimi ilə damğalanmış, onun tədqiqatçıları təqiblərə məruz qalmışdılar. Abbasqulu Ağa Bakıxanov idealizmdə, fanatizmdə, xan və bəyləri müdafiə etməkdə, Mirzə Kazım bəy "çarizmin sadiq qulu" olmaqda təqsirləndirilirdilər. Akademik Məmməd Arif Dadaşzadə az qala "Türkiyə casusu" elan olunaraq, 3 il (1950-1953) ev dustağı olmuşdu. Akademik, yazıçı Mirzə İbrahimov, professor, SSRİ Elmlər Akademiyasının müxbir üzvü Aleksandr Makovelski elmi-siyasi sayıqlığı itirməkdə tənqid edilmişdilər. Mikayıl Rəfili "kosmopolit" damğası ilə işdən uzaqlaşdırılmış, yazıçı Süleyman Vəliyev müharibədə əsir düşdüyünə görə (baxmayaraq ki, əsirlikdən qaçaraq, İtaliyada Triyest vilayətində partizan hərəkatında iştirak etmişdi) başı çox bəlalar çəkmiş, 1949-1955-ci illərdə Sibirə sürgün olunmuşdu. Mircəfər Bağırov AK(b)P XIX qurultayında (1952, sentyabr) Səməd Vurğunu hədələyərək, "Sən ləngimədən kommunizmin əlifbasından başlamalısan, yoxsa məhv olacaqsan" – demişdi [10, s.159].

Mərkəz azərbaycanlılara güvənmirdi, ən mühüm vəzifələrə, o cümlədən də güc orqanlarına başqa millətlərin mənsubları, əsasən də rus və ermənilər cəlb edirdi. Erməni millətçiləri də azərbaycanlı kadrlara qarşı bu fürsətdən hiyləgərcəsinə istifadə edirdilər. Ədalət naminə qeyd edərdik ki, M.C.Bağırovun Azərbaycan tarixində təzadlı rolu da bu və digər məsələlərdə görünürdü. Bəhs edilən illərdə respublikanın ərazi bütövlüyünə qarşı erməni təhlükəsinin zərərsizləşdirilməsində onun xidmətləri danılmazdır. Erməni kadrların güc orqanlarında kök saldığından xəbərdar olan M.C.Bağırov 1945-1953-cü illərdə Azərbaycan xalqının qatı düşməni olan bir sıra erməni fitnəkarlarını ifşa edərək, respublikadan qovmuşdu. O, hətta Qarabağ, Naxçıvan və başqa tarixi Azərbaycan torpaqlarının erməni ərazisi olduğunu "yaradıcılığı"nda əsaslandırmağa çalışan yazıçı Marietta Şaginyanın Bakıya gəlməsini önləmişdi. O, eyni münasibəti marşal İ.Baqramyanın qardaşı Baqramova və 1918-ci ilin martında Bakıda azərbaycanlıların qırğınını təşkil edən Stepan Şaumyanın oğlu, "Böyük Sovet Ensiklopediyası"nın baş redaktorunun müavini Levon Şaumyana qarşı da nümayiş etdirmişdi [11, s. 170]. Lakin görülən bu tədbirlər yetərli olmamış, Sovet dövlətində yüksək vəzifə tutan və İ.Stalinə yaxın olan A.Mikoyanın təşəbbüsü ilə Dağlıq Qarabağın Ermənistana verilməsi tələbi irəli sürülmüşdü.

1945-1953-cü illərdə bir başqa maraqlı məqam inzibati-amirlik üsuli-idarəsinin güclənməsi, sözdə verilmiş "demokratik" hüquqların çoxunun əməldə təmin edilməməsi insanların ictimai-siyasi həyatda, dövlət idarəçiliyində fəal iştirakına ciddi əngəl yaradılmasına gətirib çıxarırdı. Çünki "Xalq hakimiyyəti" orqanlarına seçkilər kağız üzərində, inzibati nəzarət, hətta xüsusi təzyiq altında keçirilməklə, formal xarakter daşıyırdı. Mövcud quruluşdakı bu cür qüsurları, ziddiyyətli məqamları, əsl mahiyyətini zehni inkişaf səviyyəsi yüksək olan əhali yaxşı dərk edirdi. Bu səbəbdən də gənclər arasında təşkilatlanmaq və mübarizə aparmaq arzusu yaranırdı. Bu məqsədlə qurulan gizli təşkilatlardan

biri də "İldırım" təşkilatı idi. Bu qurumun üzvü olan bir qrup vətənpərvər - Gülhüseyn Abdullayev (Azərbaycan Dövlət Universitetinin (ADU) aspirantı), Musa Abdullayev (Azərbaycan Tibb Universitetinin (ATU) tələbəsi), Azər Ələsgərov (ADU-nun apsirantı), Kamal Əliyev (Azərbaycan Sənaye İnstitutunun (ASİ) tələbəsi), Aydın Vahidov (ASİ-nin tələbəsi), Hacı Zeynalov (ADU-nun tələbəsi), İsmixan Rəhimov (Azərbaycan Dövlət Xarici Dillər İnstitutunun məzunu, Azərbaycan Pedaqoji İnstitutunun aspirantı), Kamil Rzayev (Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun Politexnik fakültəsinin tələbəsi) [13, 188-198] Azərbaycanın azadlığa çıxması üçün güclü, tanınmış bir liderin rəhbərlik etməsini vacib bilərək, S.Vurğuna gizli məktubla müraciət etmişdilər ki, bu missiyanı öz üzərinə götürsün. Onların amalı Azərbaycanın müstəqilliyi, Azərbaycan dilinin qorunması kimi məsələlər idi. Lakin bu amallar uğrunda mübarizə üçün şərait yetişməmişdi. Üstəlik, Səməd Vurğun da belə bir təklifi özünə qarşı provokasiya olduğunu sanaraq, qəbul etməyə əsla meyilli deyildi; hətta təşkilatın aşkara çıxarılmasında onun da rolunun olduğu barədə söyləməyə yetərli əsas var. Ona görə də təşkilatın ömrü uzun olmadı. 1942-ci ildən ilkin rüşeymləri atılan təşkilat 1947-ci ilin əvvəllərində fəaliyyətini dayandırdı. 1948-1949-cu illərdə onun 8 fəal üzvü həbs edilib sürgün olundu [10, s.158]. Bütün bunlara baxmayaraq, Stalinin ölümü ilə sürgün həyatından xilas olan gənclər yenidən öz amalları uğrunda mübarizəni davam etdirmişdilər.

Azərbaycanlıların Ermənistan SSR-dən sürgün edilməsi. İkinci dünya müharibəsi başa çatdıqdan sonra SSRİ-nin daxili siyasətində böyük dövlətçilik amillərinin güclənməsi müxtəlif xalqlara qarşı basqıların artmasında özünü göstərirdi. Qarabağ probleminin, daha doğrusu, Qarabağa erməni iddialarının o illərdə yenidən aktuallaşması da təsadüfi olmayıb, ali hakimiyyət çevrələrinin müəyyən niyyətlərindən irəli gəlmişdi. Müharibədən sonra SSRİ-nin Türkiyə ilə münasibətlərinin sürətlə pisləşməsi, Şərqi Anadoluya münasibətdə imperialist tələblərin irəli sürülməsi, habelə dünya ermənilyinin "könlünü" almaqla, Qərblə yenicə başlanan və "Soyuq müharibə" adını alan qarşıdurmada onlardan yararlanmaq istəyi Kremlə erməni ekspansionist planlarına da "isti" yanaşmağa sövq edirdi.

Beləliklə, Moskvanın havadarlığı ilə mərkəzdəki və xarici ölkələrin lobbisinə arxalanan erməni millətçiləri, kommunist cildinə girmiş daşnaklar müharibədən sonrakı illərdə əsasən iki strateji istiqamət üzrə fəaliyyət göstərirdilər: azərbaycanlıların Ermənistan SSR-dəki tarixi-etnik ərazilərindən sıxışdırılıb çıxarılması və Qarabağın Azərbaycanda qoparılıb Ermənistana verilməsi. XX əsrin 40-cı illərdə Moskvanın, bilavasitə A.Mikoyanın təşəbbüsü ilə Ermənistanda partiya elitasının fəal iştirakı ilə gizli "Qarabağ hərəkatı", "Qarabağ komitəsi" yaradılmışdı [1, s.147]. 1945-ci ilin payızında Ermənistan SSR hökuməti növbəti dəfə ÜİK(b)P MK qarşısında Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin Ermənistana verilməsi məsələsini qaldırır. Ermənistan K(b)P MK və XKS-nin Stalinə müraciətində heç bir elmi, tarixi əsası olmadan Dağlıq Qarabağ ərazisinin guya iqtisadi cəhətdən daha çox Azərbaycan SSR-lə deyil, Ermənistan SSR-lə bağlı olduğunu sübut etməyə cəhd göstərilir. Məsələyə dərhal reaksiya verən Mərkəzi hökumətin nümayəndəsi ÜİK(b)P MK katibi Georgi Malenkov 1945-ci il noyabrın 28-də Azərbaycan K(b)P MK-nın birinci katibi M.C.Bağırova yazdığı məktubunda bu məsələ ilə bağlı məlumat verir və onun rəyini soruşur [12, s.294]. M.C.Bağırov 1945-ci il 10 dekabr tarixdə ("tam məxfidir" qrifi ilə) ona cavab məktubu göndərir. Məktubda Ermənistanın Dağlıq Qarabağla bağlı irəli sürdüyü bütün iddiaların heç bir elmi, tarixi əsası olmadığı və Dağlıq Qarabağın tarixən Azərbaycan ərazisi olduğu tutarlı faktlarla sübut edilirdi.

Cavab məktubunda sovet hakimiyyəti illərində ilk dəfə Azərbaycan rəhbəri tarixi Azərbaycan torpaqları problemini qaldırır: M.C.Bağırov, əhalisinin əksəriyyəti azərbaycanlı olan Şuşa rayonu istisna olmaqla, Qarabağın dağlıq hissəsinin Ermənistana verilməsinin əvəzində, Ermənistanda, Gürcüstanda və Dağıstanda azərbaycanlıların çoxluq təşkil etdiyi tarixi Azərbaycan torpaqlarının - Zəngəzur, Göyçə, Borçalı, Dərbənd bölgələrinin Azərbaycana qaytarılmasını şərt kimi irəli sürür [2, s.219; 7, s.117-118]. Sovet rəhbərliyi və Ermənistan belə ərazi dəyişikliyinə getməkdən imtina etdi. Çünki Zəngəzur Azərbaycana qaytarılardısa, Türkiyə və Azərbaycan arasında süni yaradılmış "erməni ərazisi" ləğv edilərdi. Həmçinin Azərbaycan rəhbərliyinin məsələni bu səpkidə qoyması ermənilərin planlarının pozulması ilə yanaşı, Mərkəzi hökumətə problemin bütün ölkə üçün sonsuz fəlakətlər yaradacağını anlatdı. Belə bir təhlükənin real olduğunu görən mərkəzi hökumət ermənilərin iddialarını qəbul etmədi.

Eyni zamanda Moskva Türkiyə ilə sərhəddə ermənilərin mövqeyini möhkəmləndirmək tədbirləri gördü. Hələ 1943-cü il noyabrın 28-dən dekabrın 1-dək SSRİ ABŞ və İngiltərənin iştirakı ilə keçirilən Tehran konfransında Sovet-İran münasibətləri müzakirə edilərkən, gələcəkdə "Böyük Ermənistan" dövləti yaratmaq xülyasında olan ermənilər əlverişli şəraitdən istifadə edərək, SSRİ xarici işlər naziri V.Molotova müraciət edib, İranda yaşayan ermənilərin SSRİ-yə köçürülməsinə icazə istəmişdilər. V.Molotov məsələ ilə bağlı İ.Stalinlə danışdıqdan sonra onların Ermənistan SSR ərazisinə köçürülməsinə razılıq vermişdi. 1946-cı il oktyabrın 19-da SSRİ Ali Soveti Rəyasət Heyəti xarici ölkələrdə yaşayan ermənilərin Ermənistan SSR ərazisinə köçürülməsi ilə bağlı Fərman verdi [8, s. 53]. Ermənilərin Ermənistan SSR-ə köçürülməsi "Daşnaksutyun" partiyasının 1947-ci ilin iyununda keçirilmiş XIV konqresinin qəbul etdiyi qərarlarla bilavasitə bağlı idi. Bu köçürülmə repatriasiya, yəni guya ermənilərin tarixi torpaqlarına qayıtması kimi təqdim edilirdi. Bu qərarlarda repatriasiyanın "azərbaycanlıların yaşadıqları torpaqların boşaldılması və Ermənistan sərhədlərinin genişləndirilməsi" şəraitində baş verdiyi iddia edilirdi. Bu işə Qriqoryan kilsəsi də xeyir-duasını vermişdi.

Beləliklə, azərbaycanlıların Ermənistan SSR ərazisindəki dədə-baba torpaqlarından sürgün edilməsinin növbəti mərhələsi başlandı. 1947-ci il dekabrın 23-də SSRİ Nazirlər Soveti "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalisinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 4083 saylı qərar verdi. SSRİ Nazirlər Sovetinin 1948-ci il 10 mart tarixli "Ermənistan SSR-dən kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" daha bir qərarı ilə bu işi həyata keçirmək üçün konkret tədbirlər planı müəyyən olundu. Qərara əsasən 1948-1950-ci illərdə 100 min azərbaycanlı, 1948-ci ildə 10 min, 1949-cu ildə 40 min, 1950-ci ildə isə 50 min nəfər "könüllülük prinsipinə əsasən" Azərbaycana köçürülməli idi. SSRİ Nazirlər Sovetinin 1948-ci il 10 mart tarixli qərarının axırıncı, II maddəsində ayrıca belə qeyd edilirdi ki, Ermənistan SSR Nazirlər Sovetinə azərbaycanlı əhalinin köçürülməsi ilə əlaqədar onların boşaltdıqları tikililərdən, yaşayış evlərindən xaricdən gələn ermənilər yerləşdirmək üçün istifadə edilməsinə icazə verilsin. Həmin hadisələr baş verən vaxtı Ermənistan SSR-də 170 mindən artıq Azərbaycan türkü yaşayır, Əzizbəyov, Vedi, Qarabağlar, Qukasyan, Basarkeçər, Qafan və başqa rayonlarda əhalinin böyük əksəriyyətini onlar təşkil edirdilər. Azərbaycan türkləri Ermənistan SSR üzrə 24 rayonun 220 koxozunda elliklə, 63 kolxozunda isə qarışıq şəkildə yaşayırdılar [6, s.80].

Azərbaycan SSR Nazirlər Sovetinin sədri T.Quliyevin SSRİ Nazirlər Sovetinin sədr müavini G.M. Malenkova 13 dekabr 1948-ci il tarixli məlumatında 1948-ci ilin 1 noyabrına qədər Ermənistan SSR-dən Azərbaycan SSR-ə 7747 nəfərin (1799 təssərrüfat) köçürüldüyü bildirilirdi [6, s.105]. 429 ailə (2834 nəfər) müxtəlif təzyiqlərə məruz qaldığına görə pərakəndə halda Azərbaycana gəlməyə məcbur olmuşdu. 1948-ci ilin payızınadək deportasiyaya məruz qalanların sayı 10.584 nəfər idi [1, s.148]. Azərbaycan SSR Nazirlər Soveti yanında Köçürmə idarəsinin tam olmayan məlumatına görə 1949-cu ildə özbaşına olaraq 4.396 nəfəri özündə birləşdirən 856 ailə Ermənistan SSR-dən Azərbaycan SSR-ə köçüb gəlmişdi [6, s.105].

Azərbaycan SSR və Ermənistan SSR rəhbərləri arasında əldə olunmuş razılaşmaya görə, 1949-cu ildə 15713 nəfər (5420 nəfəri yazda, 10293 nəfəri isə payızda) və 3818 təsərrüfat köçürülməli idi. Lakin SSRİ Nazirlər Soveti Azərbaycan SSR və Ermənistan SSR hökumətləri arasında əldə edilmiş razılaşmanı təsdiq etmədi və SSRİ hökumətinin rəsmi nümayəndəsi S.Çeremuşin Azərbaycan SSR Nazirlər Sovetinin sədri T.Quliyevdən Ermənistan SSR-dən Azərbaycana əvvəlcədən müəyyənləşdirilmiş 40000 nəfər azərbaycanlının köçürülməsini tələb etdi [9, s.17]. Azərbaycan SSR Nazirlər Soveti çıxılmaz vəziyyətə düşdüyündən məsələnin həlli üçün SSRİ Nazirlər Soveti sədrinin müavini G.M.Malenkova müraciət edib bildirdi ki, bu qədər adamın köçürülməsi və yerləşdirilməsi üçün Azərbaycanın imkanı yoxdur. Müraciətdə 1949-1950-ci illər üçün əvvəllər müəyyən edilmiş köçürmə planlarına yenidən baxılması və "Ermənistan SSR-dən olan azərbaycanlı kolxozçuların və digər əhalinin 10 min nəfərinin 1949-cu ildə, 15 min nəfərinin isə 1950-ci ildə köçürülməsinə icazə verilməsi" xahiş edildi.

Ermənistanın 22 rayonunundan, əsasən, Basarkeçər, Zəngibasar, Noyemberyan, Mikoyan, Dilican, Aştarxan, Kirovakan rayonlarından xeyli sayda azərbaycanlı ən pis şərtlər altında Azərbaycan

SSR-ə sürgün edildi [6, s.85]. Bu rayonlar əsasən azərbaycanlıların kompakt halda, yaxud ermənilərlə qarışıq şəkildə yaşadıqları dağlıq və dağətəyi rayonlar idi. Erməni millətçiləri, ilk növbədə, azərbaycanlıları bu rayonlardan qovub çıxarmağa çalışırdılar [1, s.149].

Ermənistandan deportasiya olunmuş azərbaycanlılar Azərbaycan SSR-in Kür-Araz ovalığı və digər rayonlarında yerləşdirilərkən burada yaşayan ermənilər tərəfindən də təqib olunurdular. Hətta Ermənistan azərbaycanlıları haqqında rəhbərliyə böhtan dolu məktub və teleqramlar ünvanlanırdı. Azərbaycan SSR Şamxor (indiki Şəmkir) rayon partiya və icra orqanlarında rəhbər vəzifə tutan ermənilər 150 nəfər azərbaycanlının öz təsərrüfatları ilə birlikdə rayondan sürgün edilməsi barədə qərarın qəbul edilməsinə nail olmuşdular [8, s.53]. Ermənilərin Azərbaycanda bu özbaşınalığına respublikanın XDİN-də, partiya və sovet orqanlarında rəhbər vəzifə tutan Markaryan, Qriqoryan, Yemelyanov, Borşov və başqaları göz yumurdu. Bu satqın rəhbər kadrlar ermənilərin yığcam yaşadıqları DQMV və onun ətrafında yerləşən rayonlarda deportasiya olunanların yerləşdirilməsinə hər cür əngəl yaradır, M.C.Bağırova yalan və böhtanla dolu rəsmi arayışlar təqdim edirdilər. Azərbaycana sürgün edilən şəxslərin ermənilər tərəfindən sıxışdırılması barədə kollektiv imza ilə göndərilən ərizə və məktubları respublika Təhlükəsizlik Nazirliyinin rəhbəri Yemelyanov qəsdən M.C.Bağırova təqdim etdiyi arayışda "millətçilik", "siyasi təxribat" kimi təqdim edirdi.

1949-cu ildə Ermənistandan Azərbaycanın Saatlı, Göyçay, Mirbəşir (indiki Tərtər), İmişli, Əli Bayramlı, Zərdab, Salyan, Kürdəmir, Xaldan, Sabirabad, Jdanov (indiki Beyləqan), Yevlax, Ucar, Gədəbəy və Bərdə rayonlarına 15276 adam sürgün edilmişdi.

1950-ci il martın 14-də və avqustun 25-də Azərbaycan və Ermənistan respublikalarının Nazirlər Sovetləri həmin ilin yazında və payızında Azərbaycana 3419 təsərrüfatın və 14361 nəfər adamın sürgün edilməsi haqqında qərar qəbul etmişdilər. Lakin mütəşəkkil sürgün planı erməni millətçilərin istədikləri sürətlə reallaşdırılmırdı. Bunun da bir sıra obyektiv və subyektiv səbəbləri var idi. Çünki sürgün edilənlərin sosial və məişət problemləri lazımınca həll edilmirdi (respublikanın qısa müddətdə bu yerlərdə kifayət qədər mənzil tikmək imkanı yox idi). Yerlərdə buna süni əngələr də yaradılırdı. Bu səbəbdən də Ermənistan SSR-dən sürgün edilən azərbaycanlılardan 1950-ci ildə Azərbaycandan Ermənistana - öz keçmiş yaşayış yerlərinə qayıdanlar da günü-gündən artırdı. Sürgün edilənlər çıxılmaz vəziyyətə düşən bəziləri çıxış yolunu Mərkəzi hökumətə şikayət və etiraz məktubları yazmaqda görürdü. Lakin bu şikayət və etirazlar əbəs və faydasız idi [9, s.23]. Çünki sürgünlərin ardı-ardı arası kəsilmirdi. 1950-ci ildə Ermənistandan Azərbaycana 2907 təsərrüfat və ya 12332 adam köçürülmüşdü. Bu, əvvəlki illərlə müqayisədə ən yüksək göstərici idi. Lakin erməni millətçiləri və onların mərkəzi hökumətdəki himayədarları SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr və 1948-ci il 10 mart tarixli qərarlarının icrası vəziyyətindən qəti narazı idilər. Onların təkidi ilə 1951-ci il 28 fevral tarixində SSRİ Nazirlər Soveti "1951-ci ildə köçürülmə planı haqqında" 605 saylı məxfi qərar qəbul etmişdi. Bu rəsmi sənəddə sürgün prosesinin sürətləndirilməsi tələb edilirdi. Görülən sərt inzibati tədbirlərə baxmayaraq hətta 1951-ci ildə erməni millətçilərinin istəyinin əksinə olaraq, sürgün edilənlərin geriyə qaytarılması halları daha da çoxaldı. Belə ki, Ermənistan SSR Nazirlər Soveti yanında Köçürmə İdarəsinin rəisi 1951-ci mayın 27-də verdiyi məlumatda 36 azərbaycanlı ailəsinin geriyə qayıtdığını göstərirdi [9, s.26].

1952-53-cü illərdə Ermənistandan daha 3155 təsərrüfat və 1376 nəfər azərbaycanlı deportasiya edildi. Lakin geri qayıdanların sayı da artdı. 1954-cü ildə Azərbaycan SSR kənd təsərrüfatı nazirinin müavini M.Poladovun rəhbərliyi ilə Ermənistana ezam edilmiş xüsusi komissiya müəyyən etdi ki, köçürülənlərin geriyə qayıtmalarının əsas səbəbi Azərbaycanın Kür-Araz ovalığında yaşayış üçün əlverişli şəraitin olmaması idi. Bu səbəbdən də Azərbaycandan Ermənistana 1115 ailə geri qayıtmışdı. Geri qayıdanlar Ermənistanda qeydə alınmır və adi vətəndaş hüquqlarından məhrum edilirdilər. Sürgün prosesi 1956-cı ilə qədər davam etdirildi. 1954-1956-cı illərdə 1316 təsərrüfat və 5876 nəfər Ermənistandan köçürüldü. Bütövlükdə, Ermənistan SSR-də etnik təmizləmənin bu mərhələsində 100 min nəfərdən çox azərbaycanlı zorla sürgün edilmiş və ya sürgünə məcbur edilmişdir. Sürgün edilən hər üç nəfərdən biri yeni şəraitə, isti, quru iqlimə, məişət təminatsızlığına uyğunlaşa bilməyib, aclıq və xəstəlikdən həlak olurdu.

1948-1956-cı illərdə Ermənistan SSR-dən, öz tarixi etnik torpaqlarından sürgün edilən azərbaycanlıların bu faciəsi hüquqi cəhətdən 1948-ci ildə BMT-nin İnsan Hüquqları Komissiyasının qəbul etdiyi qərarın II maddəsinə uyğun olaraq soyqırım və etnik təmizləmə kimi qiymətləndirilməlidir. Zaqafqaziyada hökumətin yeritdiyi antiazərbaycan siyasətinin bir təzahürü də Ermənistan və Gürcüstandakı qədim Azərbaycan torpaqlarında toponimlərin özgələşdirilməsinə, azərbaycanlılara məxsus abidələrin məhv edilməsinə geniş şərait yaradılması idi [1, s.149-151]. Məsələn, 1947-1953-cü illərdə 60-dan artıq azərbaycanlı yaşayış məntəqələrinin, eyni zamanda Ermənistan SSR Ali Sovetinin 1950-ci il 19 sentyabr tarixli fərmanı ilə dəmiryol stansiyalarının adları dəyişdirilmiş, Kolagirən-Tumanyan, Hamamlı-Spitak, Ortakilsə-Maisyan, Tomardaş-Vapdakar, Arpaçay-Axuryan, Buğdaşeş-Baqravan, Qaraqula-Gedan, Ələyəz-Araqats, Boğudlu-Armeni, Qaraburun-Qarmraşen, Qamışlı-Sovetaşen, Uluxanlı-Masis, İmanşahlı-Mxçyan, Qəmərli-Artaşat, Şirazlı-Ayçavan adlandırılmışdır [6, s.108].

Azərbaycan türklərinin tarixi-etnik torpaqlarından kütləvi deportasiyasının nəticələri belə ümumiləşdirmək olar. Birincisi, Azərbaycan türklərinin köçürülməsi haqqında SSRİ Nazirlər Sovetinin 23 dekabr 1947-ci il tarixli qərarı SSRİ və Ermənistan SSR rəhbərlərinin türk əhalisinə qarşı həyata keçirdikləri cinayətkar siyasi akt idi. İkincisi, həyata keçirilən köçürülmə aktı deyil, məcburiyyət prinsipi ilə həyata keçirilən sürgün idi və əsl soyqırım idi. Üçüncüsü isə, sürgün nəticəsində 197-dən artıq kənd xarabaya çevrildi, bir sıra sosial, mədəni, maarif ocaqları bağlandı, 60-dan artıq türk mənşəli yaşayış məntəqələri "ermənileşdirildi". Nəhayət, sonuncusu isə Azərbaycan türklərinin Qərbi Azərbaycan torpaqlarından sürgün edilməsi dövlət səviyyəsində həyata keçirildi və ermənilərin antitürk xarakterli siyasətinin mahiyyətini bir daha üzə çıxartdı.

Nəticə. Bütövlükdə, 1945-1953-cü illər Azərbaycan SSR-də sovet hökumətinin həyata keçirdiyi tədbirlərin araşdırılması onların kifayət qədər ağır sosial fəsadlarını aşkarlamağa imkan verir. Bu "tədbirlər" sırasında idarəçiliyin əsasən qeyri-azərbaycanlılardan təşkili, milli amal daşıyıcılarının fiziki baxımından məhvi və ya sürgünlərə məruz qalması, fürsət düşdükcə Azərbaycan əraziləri hesabına Ermənistan SSR ərazisinin genişləndirilməsinə edilən cəhdlər daha çox diqqətçəkən idi. Fikrimizcə, bəhs olunan illərdə hökumətin addımları bir tərəfdən totalitar rejimin mütəmadi repressiyalara əl atmalı olduğu zərurətindən xəbər verirdisə (çünki totalitarizm həm şüurlarda öz ağalığını təmin etmək, həm də cəmiyyəti qorxu içərisində saxlamaq üçün müntəzəm cəza tədbirlərinə üz tutur), digər tərəfdən Azərbaycan xalqının milli mənəvi varlığına qarşı hücumlarına dəlalət edirdi. Başqa sözlə, sovet totalitarizmi müharibədən sonra istər vətəndaşların şəxsiyyət haqlarına, istərsə də azərbaycanlıların milli varlıq kimi amallarına qarşı təzyiqlərini artırmışdı. Repressiv tədbirlərin ən bariz və fəlakətli aktlarından biri isə azərbaycanlı əhalinin xeyli hissəsinin öz dədə-baba yurdlarından – Ermənistan SSR-dən deportasiyası olmuşdu. Yalnız Stalinin ölümü həm daha amansız repressiyaları, həm də azərbaycanlıların qəti surətdə tarixi torpaqlarından sürgününü önləmiş oldu.

ƏDƏBİYYAT

1. Azərbaycan tarixi: [yeddi cilddə]. Cild. 7: İyun 1941-2002-ci il. Bakı: Elm, 2003, 626 s.
2. Bayramov, A. Tarixi faciələrimiz: Deportasiya, repressiya və soyqırımı / A.Bayramov. – Bakı: "AM965" MMC-nin mətbəəsi, – 2015. – 416 s.
3. Əliyev, M. Şimali Azərbaycanın Rusiya tərəfindən işğalının tarixşünaslığı /M. Əliyev. – Bakı: Adiloğlu, – 2001. – 316 s.
4. Əsədov, S. Heydər Hüseynov / S.Əsədov. – Bakı: Azərbaycan, – 1998. – 96 s.
5. Qaffarov, T. Azərbaycan tarixi. 1920-1991 / T.Qaffarov. – Bakı: Mütərcim, – 1999. – 280 s.
6. Qurbanlı, Ə. Azərbaycanlıların Ermənistan SSR-dən deportasiyası tarixindən (1947-1953-cü illər) / Ə.Qurbanlı. – Bakı: Turxan, NPB, – 2018. – 168 s.
7. Məmmədov, N. Azərbaycan SSR Dağlıq Qarabağ Muxtar Vilayəti: iyun 1941-dekabr 1950-ci illərdə / N.Məmmədov. – Bakı: Elm, – 2006. – 182 s.
8. Nəcəfov, B. Deportasiya: [3 hissədə], III hissə / B.Nəcəfov. – Bakı: Çaşıoğlu, – 1998. – 214s.
9. Paşayev, A. Köçürülmə /A.Paşayev. – Bakı: Azərnəşr, – 1995. – 40 s.

10. Siyasi tarix: [2 hissədə]. hissə 2. – Bakı: Azərbaycan Ensiklopediyası, – 1998. – 420 s.
11. Süleymanov, M. Son bahara çatdıq / M.Süleymanov. – Bakı: Xəzər Universiteti Nəşriyyatı, – 1996. – 208 s.
12. Исмаилов, Э. Власть и народ: послевоенный сталинизм в Азербайджане 1945-1953 / Э.Исмаилов. – Баку: Адилоглы, – 2003. – 342 с.
13. Зейналова, М. Студенческая антисоветская организация «Илдырым» и ее место в политической истории Азербайджана // Bakı: Milli Azərbaycan Tarixi muzeyi, – 2020, – с. 188-198.
14. История Азербайджана: [в трех томах]. Т. 3, ч. 2. – Баку: Академии Наук Азерб. ССР, – 1963. – 528 с.

ШОЛЕ МАМЕДОВА
Младший научный сотрудник отдела истории советского периода Азербайджана Института истории им. А.А. Бакиханова НАНА

УЖЕСТОЧЕНИЕ СОВЕТСКОГО ПОЛИТИЧЕСКОГО РЕЖИМА В АЗЕРБАЙДЖАНСКОЙ ССР 1945-1953 ГГ.

В статье рассматривается очередной этап ужесточения советского политического режима в Азербайджанской ССР в 1945-1953 годах. В ходе исследования приводятся подробные сведения по поводу политики ссылки и депортации, проводимой советским правительством в отношении азербайджанского народа, ограничительных мер, направленных против национальных духовных ценностей. В статье также затрагивается вопрос об инонациональных кадрах, занимающих руководящие должности в Азербайджане; на примере тайной организации «Илдырым» объясняется отдельные аспекты подпольной борьбы против советского политического режима. Вместе с тем основываясь на богатую фактологическую базу, охарактеризован урон, нанесенный советским политическим режимом нашему народу и традициям государственности в указанные годы. Особое внимание уделено осуществляемым тогда же мерам депортации, фактически рассчитанным на физическое уничтожение наших соотечественников, проживающих в Армянской ССР. На наш взгляд, наиболее важным нововведением, достигнутым при изучении поставленной в статье проблемы, является обоснование того, что жесткие меры, предпринятые тогдашним режимом против народа Азербайджана в 1945-1953 гг., фактически представляли завершающий этап советских репрессий, начавшихся после оккупация 27 апреля 1920 года. Потому что с разгромом организации «Йылдырым» был нанесен серьезный удар как носителям идей независимости, так и антитоталитарно мыслящим людям в Азербайджане. Это привело к тому, что в последующие десятилетия проявления национального пробуждения в большей степени выказывались в сфере культурно-филологических вопросов. Также наблюдалось значительное ослабление политического сопротивления тоталитарному режиму. Не случайно до середины 1980-х годов мы не сталкиваемся с серьезной организационной формой национального движения.

Ключевые слова: Азербайджанская ССР, депортация, организация Илдырым, тоталитарный режим.

SHOLE MAMMADOVA
Junior Researcher of the Department of "History of the Soviet Period of Azerbaijan" of the A.A. Bakikhanov Institute of History of the ANAS

TOUGHENING OF THE SOVIET POLITICAL REGIME IN THE AZERBAIJAN SSR 1945-1953

The article examines the next stage of the tightening of the Soviet political regime in the Azerbaijan SSR in 1945-1953. The study provides detailed information about the policy of exile and

deportation pursued by the Soviet government towards the Azerbaijani people, restrictive measures directed against national spiritual values. The article also touches on the issue of foreign personnel occupying leadership positions in Azerbaijan; using the example of the secret organization "Ildirym", certain aspects of the underground struggle against the Soviet political regime are explained. At the same time, based on a rich factual base, the damage caused by the Soviet political regime to our people and the traditions of statehood in these years is characterized. Particular attention is paid to the deportation measures carried out at the same time, which were actually designed for the physical destruction of our compatriots living in the Armenian SSR. In our opinion, the most important innovation achieved in studying the problem posed in the article is the substantiation that the harsh measures taken by the then regime against the people of Azerbaijan in 1945-1953 actually represented the final stage of Soviet repressions that began after the occupation on April 27, 1920 of the year. Because with the defeat of the Yildirim organization, a serious blow was dealt to both the bearers of the ideas of independence and the anti-totalitarian-minded people in Azerbaijan. This led to the fact that in subsequent decades, manifestations of national awakening were manifested to a greater extent in the sphere of cultural and philological issues. There was also a significant weakening of political resistance to the totalitarian regime. It is no coincidence that until the mid-1980s we did not encounter a serious organizational form of a national movement.

Keywords: Azerbaijan SSR, deportation, İldirim organization, totalitarian regime.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 20 noyabr 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 30 noyabr 2025-ci il.
Rəyçilər: t.ü.f.d. Əsəd Qurbanlı, t.e.d. İbrahim Zeynalov.